

AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

İyul 2019

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFI SÜRƏTLƏ GEDİR”

Azərbaycan Respublikasının
Prezidenti cənab İLHAM ƏLİYEVİN
2019-cu il 10 iyul tarixində
Fransa Sahibkarlar Təşkilatına – MEDEF-ə üzv olan
şirkətlərin nümayəndələri ilə görüşdəki nitqindən



“Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir. Hazırda biz əsasən iqtisadiyyatımızın şaxələndirilməsi üzərində işləyirik. Çünki, bu, əsas prioritetdir. Bu gün neft-qaz sektorundan asılılığın azaldılması bizim əsas vəzifəmizdir. Biz iqtisadiyyatımızın şaxələndirilməsi üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, asan deyil, lakin düşünürəm ki, biz yaxşı irəliləyişə nail olmuşuq.

Qeyri-enerji sektoru 3 faizdən çox artıb və kənd təsərrüfatında bu il rekord həcmdə, təxminən 13 faiz artım olub. Qeyri-enerji sənayesində isə artım təxminən 15 faiz təşkil edir. Bu, onu göstərir ki, şaxələndirmə yaxşı nəticələr verir”.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixrac 15,7 faiz artmışdır — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 11

Azexport.az portalına 2019-cu ilin yanvar-iyun aylarında 303,1 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 17

Azexport.az portalı ixracatçı şirkətlərlə əməkdaşlığı yeniləyir — səh. 21

Cari ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 80,1 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir — səh. 22

Yekaterinburqda "Azərbaycan Şərab Evi" açılmışdır — səh. 25

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-İYUN AYLARINDA** qeyri-neft sektoru üzrə **979 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **133 milyon** ABŞ dolları və ya **15,7%** artmışdır

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu ilin yanvar-iyun ayları ərzində ölkəmizin ixracı **9,98 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **1,3 milyard** ABŞ dolları və ya **15 faiz** artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə isə **979 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin I yarısında qeyri-neft sektoru üzrə ixrac **133 milyon** ABŞ dolları və ya **15,7 faiz** artmışdır. Cari ilin yanvar-iyun ayları ərzində Rusiyaya **355 milyon**, Türkiyəyə **213,3 milyon**, Gürcüstana **85,4 milyon**, İsveçrəyə **73,5 milyon** və İtaliyaya **30,5 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (36,3 faiz), Türkiyəyə (21,8 faiz), Gürcüstana (8,7 faiz), İsveçrəyə (7,5 faiz) və İtaliyaya (3,1 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

2019-cu ilin ilk yarısında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə Rusiyaya qeyri-neft ixracı **11 faiz**, Türkiyəyə **18 faiz**, Gürcüstana **15 faiz**, İsveçrəyə **6 faiz** və İtaliyaya **2,3 dəfə** artmışdır.

Cari ilin yanvar-iyun ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (138,1 milyon ABŞ dolları) birinci, pambıq mahlıcı (74,9 milyon ABŞ dolları) ikinci və qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 70,4 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Bunlarla yanaşı təhlil edilən müddətdə qabığı təmizlənmiş meşə fındığı, elektrik enerjisi, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen, metanol (metil spirti), albalı və gilas da qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ilin birinci yarımilliyi ərzində meyvə-tərəvəz ixracı **318,4 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **103,3 milyon**, pambıq lifi ixracı **75,7 milyon**, elektrik enerjisinin ixracı **51,9 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **46,7 milyon**, kimya sənayesi məhsullarının ixracı **45,6 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **30 milyon**, pambıq ipliyi ixracı **14,6 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **15,5 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında pambıq lifinin ixracı **2,6 dəfə**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **2,2 dəfə**, kimya sənayesi məhsullarının ixracı **49 faiz**, pambıq ipliyinin ixracı **47 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **44 faiz**, meyvə-tərəvəzin ixracı **15 faiz** artmışdır.

2019-cu ilin **iyun ayında** isə qeyri-neft sektoru üzrə ixrac **192 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin iyun ayı ilə müqayisədə 2019-cu ilin iyun ayında qeyri-neft sektoru üzrə ixrac **13 milyon** ABŞ dolları və ya **7 faiz** artmışdır. Cari ilin iyun ayında qeyri-neft sektoruna aid ən çox mal Rusiya (93,8 milyon ABŞ dolları), Türkiyə (32,5 milyon ABŞ dolları), İsveçrə (14,7 milyon ABŞ dolları) Gürcüstan (8,4 milyon ABŞ dolları) və Ukrayna (5,7 milyon ABŞ dolları) dövlətlərinə ixrac edilmişdir.

2019-cu ilin iyun ayında qeyri-neft sektoru üzrə ixracda pomidor (33,8 milyon ABŞ dolları) birinci, albalı və gilas (29,6 milyon ABŞ dolları) ikinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 13,5 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Həmçinin cari ilin iyun ayında metanol (metil spirti), pambıq mahlıcı, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, qabığı təmizlənmiş meşə fındığı, emal olunmamış aşqarlanmamış alüminium, sidik cövhəri, o cümlədən sulu məhlulda, tərkibində quru susuz məhsula hesablamada 45 kütlə %-dən çox azot olan gübrələr qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2019-cu ilin birinci yarımilliyində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR-İYUN AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI İYUL



2019-CU İLİN **İYUN AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI İYUL



2019 İXRAC İCMALI İYUL

# 2019-CU İLİN **YANVAR-İYUN AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



## 2019-CU İLİN **YANVAR-İYUN AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI İYUL

### Tomat


| 2019 | 2018 |
|---|---|
| 138,1 | 140 |

### Mahlıc


| 2019 | 2018 |
|---|---|
| 74,9 | 28,3 |

### Qızıl


| 2019 | 2018 |
|---|---|
| 70,4 | 60,7 |

### Fındıq ləpəsi


| 2019 | 2018 |
|---|---|
| 67,9 | 36,1 |

### Elektrik enerjisi


| 2019 | 2018 |
|---|---|
| 51,9 | 54,6 |

### İlkin formalı polietilen


| 2019 | 2018 |
|---|---|
| 41,9 | 50,3 |

### İlkin formalı polipropilen


| 2019 | 2018 |
|---|---|
| 36,2 | 0,5 |

### Metanol (metil spirti)


| 2019 | 2018 |
|---|---|
| 31,3 | 6,5 |

### Albalı və gilas


| 2019 | 2018 |
|---|---|
| 29,7 | 26,8 |

### Digər


| 2019 | 2018 |
|---|---|
| 436,8 | 442,7 |

# 2019-CU İLİN **İYUN AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Tomat | 33,8 | 43,2 |
| Albalı və gilas | 29,6 | 26,8 |
| Qızıl | 13,5 | 12,4 |
| Metanol (metil spirti) | 7,4 | 3,9 |
| Pambıq mahlıcı | 6,8 | 2,8 |
| İlkin formalı polietilen | 6,5 | 7,7 |
| Fındıq ləpəsi | 5,9 | 2,1 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 5,8 | 6 |
| Azot gübrələri | 5,4 | 0 |
| Digər | 77,8 | 74,2 |












# 2018-Cİ İLİN VƏ 2019-CU İLİN **YANVAR-İYUN AYLARINDA** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI İYUL

## 2018

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 17,2 |
| Fevral | Elektrik enerjisi | 17,7 |
| Mart | Elektrik enerjisi | 13,6 |
| Aprel | Pomidor | 18,5 |
| May | Pomidor | 54,3 |
| İyun | Pomidor | 43,2 |

## 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Pomidor | 24,2 |
| May | Pomidor | 54,6 |
| İyun | Pomidor | 33,8 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-İYUN AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-iyun ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin birinci yarısı üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “Socar Polymer” MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Nine Climate" MMC, "Global Export Fruits" MMC, "Caspian enerji-2020" MMC, "P-Aqro" MMC, "Baku Steel Company", “Sun Food" MMC, "Food Export Şəmkir" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, “CTS-Agro” MMC, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, Dövlət Material Ehtiyatlari Agentliyi, "Bakı Neft Maşınqayırma Zavodu" TASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla taqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



2019 İXRAC İCMALI İYUL

# 2019-CU İLİN **YANVAR-İYUN AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-İYUN AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI İYUL

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| ARDNŞ-nin “MARKETİNQ Və İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ” | 112,6 milyon | 102 milyon |
| “AZƏRENERJİ" ASC | 51,8 milyon | 54,2 milyon |
| “AZƏRALÜMİNİUM" MMC | 39,8 milyon | 0 |
| "AZERGOLD" QSC | 30,4 milyon | 17 milyon |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 11,5 milyon | 0 |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 8,4 milyon | 8,4 milyon |
| “CTS-AGRO" MMC | 5,8 milyon | 10,1 milyon |
| "AZƏRTÜTÜN AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 588 min | 0 |
| DÖVLƏT MATERİAL EHTİYATLARI AGENTLİYİ | 555 min | 0 |
| "BAKI NEFT MAŞINQAYIRMA ZAVODU" ASC | 464 min | 210 min |



# 2019-CU İLİN **YANVAR-İYUN AYLARINDA "AZƏRKOSMOS" ASC 18,6 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2019-cu ilin yanvar-iyun aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **19 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **87,5 faizini** təşkil etmişdir.

2019-cu ilin iyun ayında isə "Azərkosmos" ASC dünyanın 18 ölkəsinə **2,5 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2019-cu ilin yanvar-iyun aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**





## 2019-cu ilin **YANVAR-İYUN AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ** **590,8 milyon** manatlıq əməliyyat aparmışlar

## **ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə **CARİ İLİN** birinci yarısında ölkəmizə **6,5 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir

2019-cu ilin birinci yarısında Azərbaycana dünyanın 185 ölkəsindən 1410,7 min və ya 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə **6,5 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 24,3 faizi Gürcüstan, 10,5 faizi Türkiyə, 7,5 faizi İran, 2,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,4 faizi Səudiyyə Ərəbistanı, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, 1,5 faizi Türkmənistan, hər birindən 1,4 faiz olmaqla Böyük Britaniya, Qazaxıstan və İraq, 1,3 faizi Pakistan, 12,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Cari ilin ilk yarısında ölkəmizə gələnlərin sayında daha çox artım Misir (83,1 faiz), Türkmənistan (81,0 faiz), Hindistan (80,3 faiz), Çin (77,1 faiz), Səudiyyə Ərəbistanı (76,7 faiz), Macarıstan (52,4 faiz), Böyük Britaniya (35,7 faiz), Kanada (30,8 faiz) və Cənubi Koreya (29,5 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

Cari ilin iyun ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə xərcləmələrində də artım müşahidə edilmişdir. Belə ki, 2019-cu ilin iyun ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları **115,1 milyon** manat təşkil etmiş və ötən ilin iyun ayı ilə müqayisədə **8 faiz** artmışdır. Ümumilikdə isə 2019-cu ilin yanvar-iyun ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **590,8 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

## 2017

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**
İyun - **83,8**

**Cəmi - 507,4**

## 2018

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel -**109,7**
May -**107,3**
İyun - **106,7**

**Cəmi - 620,4**

## 2019

Yanvar - **88,3**
Fevral - **85,3**
Mart - **98**
Aprel - **103,2**
May -**100,9**
İyun - **115,1**

**Cəmi - 590,8**

3

# 2019-CU İLİN YANVAR-İYUN AYLARINDA AZEXPORT.AZ PORTALINA 303,1 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

## ÖTƏN İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından 6,6 faiz ARTMIŞDIR

2019-cu ilin birinci yarısında Azexport.az portalına **303,1 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında ixrac sifarişləri **6,6 faiz** artmışdır. 2019-cu ilin iyun ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **41,3 milyon** ABŞ dolları təşkil etmiş və ötən ilin iyun ayı ilə müqayisədə **20,8 faizlik** artım qeydə alınmışdır. 2019-cu ilin birinci yarısında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya(11,9%), Türkiyə (6,6%), Hindistan (5,7%), ABŞ (5,5%) və İngiltərə (5,3%) qərarlaşmışdır.

Cari ilin iyun ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, tütün, toyuq əti və yumurtası, qənnadı məhsulu, soğan, çay, şərab, mühərrik yağı, nar şirəsi, kompot, mebel dəsti, tikinti materialı, naftalan yağı, bal, uşaq iç geyimi, gül və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 30 iyun tarixinə kimi (30 ay ərzində) Azexport.az portalına dünyanın 133 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 292,2 milyon ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA
## DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**




Yanvar - **91,7 milyon**
Fevral - **53,9 milyon**
Mart - **32,8 milyon**
Aprel - **50,9 milyon**
May - **32,5 milyon**
İyun - **41,3 milyon**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il |
|---|---|---|
| **CƏMİ - 475 milyon** | **CƏMİ - 514,1 milyon** | **CƏMİ - 303,1 milyon** |



Son **30 ay** ərzindəki sifarişlərin cəmi - **1 292,2 milyon**

# 2019-CU İLİN **İYUN AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Pambıq və pambıq məhsulları



Tütün



Toyuq əti və yumurtası



Qənnadı məhsulu



Soğan



Çay



Şərab



Mühərrik yağı



Nar şirəsi



Kompot



Mebel dəsti



Tikinti materialı




Naftalan yağı



Bal



Uşaq iç geyimi



# 2019-CU İLİN **YANVAR-İYUN AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ

2019 İXRAC İCMALI İYUL



4

# AZEXPORT.AZ PORTALI İXRACATÇI ŞİRKƏTLƏRLƏ ƏMƏKDAŞLIĞI YENİLƏYİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Azexport portalı ixracatçı şirkətlərin yeni bazarlara çıxışını dəstəkləmək yönündə fəaliyyətini genişləndirir. Bu maqsədlə Azexport portalı ixrac zamanı sərbəst satış sertifikatına ehtiyac duyan şirkətlərin sorğularını operativ cavablandırır və onları müvafiq sənədlə təmin edir. Azexport.az portalı tərəfindən sərbəst satış sertifikatı verilən şirkətlər yeni bazarlara ixracda uğur qazanaraq, bu istiqamətə fəaliyyətlərini genişləndirmək üçün sertifikatlarını yeniləməyə başlamışlar. Bu baxımdan "Made in Azerbaijan" brendi adı altında kosmetik məhsullar istehsal edən "Gazelli Group" şirkətinin fəaliyyəti xüsusi qeyd edilməlidir. Bu şirkət 2019-2020-ci illərdə də məhsul ixracını artırmaq üçün sərbəst satış sertifikatını yenilənməsinə ehtiyac duymuşdur. "Gazelli Group" şirkətinin bununla bağlı sorğusu Azexport portalı tərəfindən müsbət qarşılanmış və ona verilən sertifikatlar yenilənmişdir. Azexport portalının təqdim etdiyi sərbəst satış sertifikatı vasitəsi ilə sözügedən şirkətin qarşıdakı müddətdə Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə 64 adda məhsul üzrə ixrac reallaşdıracaqdır.

Qeyd edək ki, sərbəst satış sertifikatı Azərbaycanda ilk dəfə Azexport portalı tərəfindən təqdim olunmuşdur. Sertifikatın verilməsi ilə "Made in Azerbaijan" brendi adı altında istehsal olunan qida, dərman və insan orqanizmi ilə birbaşa təmasda olan məhsullar artıq Filippin, İndoneziya, Dominikan, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Amerika, Çin və s. ölkələrə ixrac olunmağa başlanılmışdır. Bu isə "Made in Azerbaijan" brendi adı altında istehsal olunan məhsulların ixrac coğrafiyasının genişlənməsinə, qeyri-neft ixracının artmasına töhfə verir.



5

# CARİ İLDƏ "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 80,1 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

2019-cu ilin iyul ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatların verilməsi prosesi davam etmişdir. Qeyd edək ki, Mərkəzin xidmətlərindən "AzerGold" QSC, Teymur Əhmədov adına "Aznar" QSC, "Baku Steel Company" MMC, "Sadoil" MMC, "Atena" MMC, "Agro Export Azerbaijan" MMC, "Azərtütün" MMC, "CPC" MMC, "Gilan Tekstil Park" MMC kimi şirkətlərlə yanaşı fiziki şəxslərdə istifadə etmişdirlər. Nəticədə cari ilin iyul ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən **20,4 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilikdə isə 2019-cu ilin 7 ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən **80,1 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı reallaşdırılmışdır.

Cari ilin iyul ayı ərzində ixracatçılara əsasən polad armatur yayması, polad məftil, polad boru, qiymətli metal külçələr, ayaqqabı altlıqları, meyvə şirələri, qənnadı məmulatları, biyan kökü, nar tumu yağı, pendir, tütün, tütün, təbii qarğıdalı nişastası, kolbasa, dondurma, plastik qırıntı, pambıq iplik tullantısı, qğ gilas, əncir, zəfəran mürəbbələri, sarımsaq, biyan balıvə s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Gürcüstan, Rusiya, İran, Türkiyə, Vyetnam, Qazaxıstan, Böyük Britaniya, Malaziya, İsveçrə daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon** ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN YANVAR- İYUL AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)








# 2019-CU İLİN İYUL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ





6

# YEKATERİNBURQDA “AZƏRBAYCAN ŞƏRAB EVİ” AÇILMIŞDIR

Rusiyanın Yekaterinburq şəhərində “Azərbaycan Şərab Evi” açılmışdır. Bu, Azərbaycanın xarici ölkədə açılan sayca üçüncü şərab evidir. Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev, Rusiya Federasiyasının Sənaye və Ticarət naziri Denis Manturov “Azərbaycan Şərab Evi”nin açılışında iştirak etmişlər.

Tədbir iştirakçıları “Azərbaycan Şərab Evi” ilə tanış olmuş və onlara məlumat verilmişdir ki, şərab evinin daimi fəaliyyət göstərən sərgisində Azərbaycan şirkətlərinin istehsalı olan 120 çeşiddən çox üzüm və meyvə şərabları, spirtli içkilər, meyvə distillatları və s. təqdim edilir. Şərab evində nümayiş olunan Azərbaycan məhsulları böyük maraqla qarşılanmışdır.

Qeyd edək ki, Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyinin təşkilatçılığı ilə yaradılmış “Azərbaycan Şərab Evi” yerli məhsullarımızın ixracının dəstəklənməsi, "Made in Azerbaijan" brendinin təşviqi, həmçinin Azərbaycanın şərab və digər spirtli içki məhsullarının Rusiya bazarında daha çox tanıdılması və satışının təşkili sahəsində fəaliyyət göstərəcəkdir.



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

